## ANAR

## DƏDƏ QORQUD

Köksü yaşıl ulu dağlar belə vuruş görməmişdi. Dibi dərin dar dərələr belə döyüş bilməmişdi. Savaş nə savaş idi, meydan dolu baş idi. Şahbaz-şahbaz atlar keçirdi, nalı qalırdı. Qara polad üz qılınclar çalınırdı, oxvarı ovxalanırdı. Üç yeləkli qayım oxlar atılırdı, dəmrəni düşürdü. O gün Oğuz ellərinin ağır günüydü. Oğuz oğulları bir-birinə qarşı qalxmışdı. Dost dostla, qohum qohumla cəng edirdi, qardaş qardaşdan, ata oğuldan ayrılmışdı. Bu qanlı qada Oğuz elinin başına hardan gəlmişdi? Deməklə qurtarmaq olmaz. Qoy el ağsaqqalı, yurdun müdrik bilicisi Dədə Qorqud gəlsin, qopuzunu əlinə alsın, ötənlərdən söz açsın, söz söyləsin, boy boylasın, igid ərənlərin başına gələnlərdən danışsın.

...Dədə Qorqud bu dəm nə söz qoşurdu, nə qopuz çalırdı. Altı pərli gürzlər, yalın qılınclar, dəmir uclu oxlar danışırdı, atlar kişnəyir, bahadır nərələri ərşə qalxırdı. Sözü, qopuzu eşidən kim ola, dinləyən kim ola? Dədə Qorqud fəryad edib Oğuz igidlərinə üz tutur, bu qanlı qardaş qırğınını saxlamağa çağırırdı, amma ona məhəl qoyan, qulaq asan yox idi, heç vaxt Dədə Qorqudun bir sözünü iki eləməyən igidlərin bu gün gözləri qızmış, ağılları çaşmışdı.

İki igid atlarını dördnala çapa-çapa üz-üzə gəldilər. Atlar şahə qalxdı. Bir igid o birini yerə çırpdı. Zəbun olmuş igid havadan yerə elə yavaş-yavaş, elə ağır-ağır düşdü ki, deyəsən üsulluca iplə salladılar. Amma elə həmin dəqiqə onu atdan salanın da əcəli yetdi.

Vıy-vıy vıyıldayıb gələn bir ox bu igidin bağrına sancıldı. O da qolunu uzatdı, atının boynunu qucaqladı, sürüşdü at belindən torpağa düşdü. Bir ötgün ox da ata dəydi, at da igidlərin yanına sərələndi. Aram-aram, ağır-ağır yıxıldılar, yavaş-yavaş, asta-asta hərəkətsizləşib qaldılar.

Başqa döyüşçülər də bir-birlərini qırırdılar. Bir-birini qılınclayan kim, atla yel yetməz yel kimi keçib çomağı düşmənin təpəsinə endirən kim, yayı çəkib oxu tuşlayan kim, kəmənd atıb yəhərindən dəbərdən kim...

Döyüş meydanının qəribə mənzərəsi vardı. İgidlər, atlar bir-bir həlak olduqca donub qalırdılar, daşa dönürdülər. Səslər, nərələr, at kişnərtiləri də get-gedə azalırdı. Axırda heç kəs qalmadı. İndi bütün meydan leş idi, cəsəd idi – daş leş, daş cəsəd.